DİLÇİLİK ARAŞDIRMALARI

Sentyabr-Dekabr/2021 № 2

UOT: 81.23

SƏRCAN SADIQOVA*

# SAYLARIN SİMVOLİKASININ LİNQVOKULTUROLOJİ ASPEKTİ

**XÜLASƏ**

Məqalədə sayların simvolikasının linqvokultroloji xüsusiyyətlərindən bəhs edilir. Linqvokulturologiyanın dilçilik və mədəniyyətşünaslığın qovşağında yaranan bir dilçilik istiqaməti olaraq etnolinqvistik və antropoloji tədqiqatların nəticələrini özündə birləşdirən inteqrativ bilik sahəsi hesab edilə bilər.

Məqalədə qeyd edilmişdir ki, rəqəmlərin tədqiqi və təhlili amilləri təkcə riyaziyyatın tarixi və fəlsəfəsinə təsir etdiyini düşünmək düzgün olmazdı, çünki onlar dilçilik, etnologiya, kulturologiya və digər elmlərə də böyük təsir göstərir. Rəqəmlər simvolların mədəni sistemində əlavə simvolik mənalara sahib olduğundan onlar semiotik çoxfunksiyalı işarələr hesab olunur.

Saylar dil və mədəniyyətlə həmişə vəhdət təşkil ediblər və onlar bütün dövrlərdə xalqın mədəniyyətinin bir hissəsi olmuşdur. Məqalədə qeyd edilmişdir ki, nominal dəyəri olan saylar məhsuldar və qeyri məhsuldar olmaqla iki qrupa ayrılır və məhsuldar olanlardan *1, 2, 3, 4, 5, 7, 9, 12, 40* sayları haqqında bəhs edilmiş və onların simvolik mənaları haqqında məlumat verilmişdir.

Belə qənaətə gəlinmişdir ki**,** müəyyən saylar bir sıra xalqların dünyagörüşündə müqəddəs dəyərlərə malikdir və bu dəyərlərdən məlumatlı olmaq üçün onların mənimsədiyi mənaları öyrənmək lazımdır.

**Açar sözlər:** *linqvokulturologiya, dil və mədəniyyət, simvolizm, simvolik məna, say, frazeologizm.*

**Giriş:** XXI əsrdə dil və mədəniyyətin qovşağında meydana gəlmiş linqvokulturologiya yeni dilçilik istiqamətidir və bu dilçilik sahəsinin predmeti həm dil, həm də mədəniyyətdir. Burada dil və mədəniyyətin qarşılıqlı təsiri öyrənilir. Bu elmin əsas vəzifəsi dilin mədəniyyətlə, etnosla, xalqın mentaliteti ilə əlaqəsinin öyrənilməsi və təsviridir. İnsan düşüncəsinin nəticələrini ümumiləşdirən bu dil vahidləri mif, əfsanə, ayin və adətlərdə, folklor və dini diskurslarda, nəzm və nəsrlə yazılmış bədii mətnlərdə, frazeologizm və məcazlarda, simvol və paremiyalarda və s. qeyd olunmuş arxetip və prototiplərdir [Пирманова: 2008, s.11].

Linqvokulturologiyanın və linqvokulturoloji təhlilin əsas vahidi linqvokulturemadır. Bu termin dilçiliyə V.V.Vorobyov tərəfindən daxil edilmişdir. Müxtəlif dil səviyyələrinə aid sözlər, söz birləşmələri, mətnlər, əsasən də frazeoloji birləşmələr mədəniyyətlə bağlı xüsusiyyətləri əks etdirir. Frazeoloji vahidlər bu mövqedə daha çox linqvokulturoloji potensiala malikdir, çünki "dildə mədəni-milli etalonlar və stereotiplər ilə əlaqələndirilən və nitqdə istifadə olunduqda linqvomədəni birlik üçün səciyyəvi mentaliteti canlandıran məhz həmin bədii ifadələr sabitləşir və frazeolojiləşir" [Телия:1996, s.233].

Dünya ədəbiyyatının bir hissəsi olan saylar müxtəlif elmi sahələrin tədqiqatçılarının böyük marağına səbəb olmuşdur.

Qədim dövrlərdə saylar bir insanın həyat tərzini və istiqamətini təsvir edən bir vasitə kimi xidmət etdiyindən, insanlar rəqəmlərin gizli mənalarının olduğuna və onların ətrafdakı hər şeyə təsiretmə qabiliyyətinə inandılar. Həmin zamanlarda ədədlər dünyadakı bütün varlıqların və cisimlərin ayrılmaz bir hissəsi kimi qəbul edilirdi. Rəqəmlər kainatın ilahi simvolları, kainatın təmsilçiliyinin əsası və nizamın simvolu kimi şərh edildi [Toporov; 1988].

Beləliklə, rəqəmlər dil və mədəniyyət ilə daima vəhdət təşkil edirlər. Onların əsas rolu ədədlərin sayılmasında iştirakıdır, lakin bununla yanaşı rəqəmlər simvolik və ritual ola bilən əlavə məna daşıyır.

Saylar bütün dövrlərdə xalqın mədəniyyətinin mühüm bir hissəsi olmuşdur. İnsanların yaşadığı yerlərdə hər zaman saylar və say sistemi də mövcud olmuşdur. Bununla yanaşı, rəqəmlər hər hansı bir elm sahəsinə daxil olur və ona xidmət edir. Bu nöqteyi-nəzərdən dilçilik istisna təşkil etmir.

Saylar dünya mədəniyyətinin sabit vahidlərindən biri kimi məntiqi və mədəni hadisədir, hər bir milli dildə və etnik mədəniyyətdə sayla-

* Naxçıvan Dövlət Universiteti, İngilis dili və metodika kafedrası, baş müəllim
E-mail: sarjansadigova@gmail.com

rın araşdırılması onun konseptual xüsusiyyətlərini ortaya qoyur və dil və mədəniyyət arasındakı əlaqəni müəyyənləşdirir. Onlar dil düşüncəsinin mənəvi və maddi xüsusiyyətlərini, inanclarını, adət və rituallarını əks etdirən vahidi kimi nəzərdən keçirilir. Saylarda zəngin mədəni semantika var və onlar müqəddəs simvolikalara malikdir.

Bütün dillər mənaları çatdırmaq üçün simvollardan istifadə edən simvolik sistemlərdir. Saylar kompleks tarixi-mədəni biliklər sayəsində simvolik bir xarakter qazana bilər. Məlum olduğu kimi, sayların simvolizmi dünya mədəniyyətlərində fərqli şəkildə əks olunur. İnsanlar qədim zamanlardan bəri planetləri və ulduzları müşahidə edir və eyni zamanda riyazi hesablamalar aparırlar [Loseva: 1988, s.232-233]. Mesopotamiyadakı, ən qədim say sistemlərindən biri təxminən 5000 il əvvəl başlamışdır. Babillər, bugünkü standartlar üçün də çox inkişaf etmiş bir say sisteminə sahib idilər. Onlar günü iyirmi dörd saata, hər saatı altmış dəqiqəyə, hər dəqiqəni altmış saniyəyə bölmüşdülər.

Say simvolizminin araşdırılması hər hansı bir dil mədəniyyətinin, dünyagörüşünün göstəricilərini müəyyənləşdirmək baxımından vacibdir. Bununla yanaşı, say həm məntiqi, həm də mədəni fenomendir, və istənilən milli dildə və etnik mədəniyyətdə sayın konseptual xüsusiyyətləri ilə dil və mədəniyyət arasındakı əlaqəni təyin edir. Zəngin mədəni semantikanı ehtiva edən saylar müqəddəs simvolikalara malikdir.

Günümüzdə saylar müasir dilçilər tərəfindən yalnız qrammatik kateqoriya kimi deyil, həmçinin dil mənzərəsinin bir hissəsi olaraq araşdırılır. Müqəddəs saylar və onların etnik-mədəni rəmzlərinin araşdırılmasına olan maraq getdikcə artır.

1, 2, 3, 4, 5, 7, 9, 12, 40 sayları dünyanın etnik mənzərəsinin bir hissəsini təşkil edən mədəni və milli xüsusiyyətləri özündə əks etdirir. Bildiyimiz kimi bütün sayların nominal dəyəri yoxdur. Simvolizmdə bu saylar məhsuldar və qeyri məhsuldar olmaqla iki qrupa ayrılır ki, bunlardan ən məhsuldar olanları əsasən ilk on rəqəmdir. Ədədlərin morfoloji quruluşunun mürəkkəbliyi nə qədər artarsa, onların istifadə aktivliyi o qədər azalar.

Bu günə qədər 1, 2, 7 sayları ilə xeyli ifadə düzəlmişdir. Say ifadə daxilində dəqiq miqdar mənası vermir, onlar ifadələrdə ümumi mənaya malik olurlar; ifadənin ümumi mənası ilə birlikdə bəzən az, bəzən çox mənası verir. Məsələn: bir ətək pul, bir barmaq kağız və s. Saylar ətrafında müxtəlif məna və quruluşa malik ideomatik ifadələr qruplaşdırılır.

Qədim Hind-Avropa ənənəsində 2, 3, 4, 7, 12 kimi sayların xüsusi simvolik mənası olmuşdur [Gamkrelidze, 1984]. “İki” sayı kainatın ikili ziddiyyətini əks etdirir: göy və yer, gündüz və gecə, kişi və qadın və s. Qədim avropalıların təqdimatlarında “üç” sayı müqəddəs əhəmiyyətə malik idi və çox vaxt əsas ritual əhəmiyyətli mifoloji simvolların miqdarı ilə müəyyən edilirdi: üçbaşlı canavarlar və onlarla ölümcül mübarizə aparan şəxslər və s.

“Üç” sayının müqəddəs dəyəri bütün xalqlara xas olan universal bir fenomen kimi görülə bilər. Bu bir simvolik dəyər bütövlüyünə, birliyinə malikdir: dünyanın üçlü modeli, üç qəhrəman və s. “Üç” sayının simvolik dəyərinin yayılması bütün xalqların nağıllarında müxtəlif xalq qəhrəmanlarının mühakiməsini üç dəfə aparılması ilə təsdiqlənir.

“Dörd” sayı bərabərliyin simvolik mənasına əsaslanır. “Dörd” sayının simvolizminə Hind-Avropa mifologiyasında da rast gəlinir, “dörd” küləyin mifoloji təsvirləri kimi dörd koordinat nöqtəsi ilə əlaqəlidir.

ABŞ-da “yeddi” sayı uğurlu rəqəm sayılır. Astronavtlar hər kosmik gəminin adına “7” sayını daxil edirdilər. Məsələn: Fait -7, Aurora -7 və s. Yeddi sayı dini ayinlərlə də əlaqədardır. Məsələn: Kiminsə ölümündən sonra yeddi günlük xatirə mərasimi, yeddi bişmiş tort və s. [Husain; Islam: 2004].

Qədim türk xalqlarının inanclarında isə “yeddi” sayı müsibət və pis şans ifadə edir. Quraqlıq, mal-qaranın itməsi, epidemiya, yanğın, müharibə, sel və zəlzələ kimi müsibətləri bu sayla əlaqələndirirdilər .

“Səkkiz” sayının simvolizmi bir çox xalqlarda fərqli şəkildə şərh olunur. Avropa mədəniyyətində, xüsusən də qədim Yunanıstanda səkkiz - ölüm rəmzidir. Təsadüfi deyil ki, onların padşahları dövləti səkkiz ildən çox idarə edə bilmirdilər. Çinlilərdə səkkiz sayının Buddist qrafik görünüşündə əks olunan əbədiyyət, sonsuzluq anlayışları ilə əlaqədar olaraq həyatı, xoşbəxtliyi, rifahı simvollaşdırdığı ehtimal olunur [Parkhamoviç: 2011].

İngilis dilində “doqquz” sayı Hind-Avropa dillərində *neue* sözü ilə qarşılaşdırılır, yəni səkkiz ilə bitən müəyyən halqadan sonra gələn yeni bir say deməkdir. Avropa mədəniyyəti İngilislər üçün ortaq olsa da, bu sayın müqəddəsliyi dilin həqiqətlərinə əks oldu.

Bir çox xalqlarda “on2 sayı onluq işarələr sistemi anlayışı ilə əlaqələndirilir və harmoniyanı, tamlığı, kamilliyi simvollaşdırır

Avropa mifologiyasında “on iki” sayı çox yayılmışdır: on iki başlı ilan, bir ildə olan ayların sayı, saatın üzərindəki rəqəmlər və məhkəmənin münsiflər heyətindəki üzvlərin sayını ifadə edir.

Bir çox insanın düşüncəsinə görə “on üç” uğursuz bir rəqəmdir. Bunun iki səbəbi var: birincisi təbiətlə və onun astronomik qanunları ilə, ikincisi - dinlə əlaqəlidir. İlk ay təqvimlərinin yanlışlığından dolayı onlara bir ay əlavə edilməsi lazım idi, bu da inanca göre görəuğursuzluq gətirirdi. Digər tərəfdən, cadı ayinlərində Şeytan on üçüncü yerdə gəlirdi. Buradan belə nəticəyə gəlmək olar ki, “on üç” rəqəminin simvolizmi Asiya xalqlarına nisbətən Avropada daha çox yayılmışdır və hal hazırda “13” sayının mənfi gücünə inam hələ də mövcuddur. Bir çox gəmilər, fırtınalardan xilas olacaqlarına inanaraq 13-cü limanı tərk etmirdilər. Bəzi yerlərdə bu mövhumat otel otaqlarının və kabinələrin nömrələnməsində də özünü göstərir: burada 13 yoxdur, on ikincidən sonra on dördüncü var.

Dilimizdə qırx sayı ilə bir çox ifadələr vardır: *qırx vermək, qırxı çıxmaq, qırxları qarışmaq* (40 günün ərzində doğulan və ya ölən), *qırx qapının ipini çəkmək* (çox evə adama müraciət etmək), *qırx qazanın damazlığı* (fitnəkar, şər adam). 40, 80, 100, 1000 sayı bir sıra məsəllərin tərkib hissəsidir: *qırxında//səksənində öyrənən gorunda çalar, yüz il yaraq, bir gün gərək, yüz sözə bir çürük qoz olmaq, min bir dillə oxşamaq* və s.

Saylar idrak prosesində də xüsusi yer tutur. Onlar nominativ funksiya ilə yanaşı idrak funksiyasını da yerinə yetirir, yəni kəmiyyət münasibətlərinin obyektiv biliklərinin əsas mərhələlərini əks etdirir. Saylar hər bir dilin ən qədim vahidlərindən sayılır. Fərqli dillərdəki saylar subyektdən kəmiyyət dəyərinə qədər inkişaf etmişdir və bu da onların universal xüsusiyyəti hesab edilir.

Saylar çoxfunksiyalı işarələr hesab olunduğundan elmin müxtəlif sahələrində onların öyrənilməsinə olan maraq artır. Frazeoloji vahidlərdə sayların öyrənilməsi onlarda əks olunan simvol anlayışının mədəni və tipoloji xüsusiyyətlərinin aşkarlanması baxımından əhəmiyyətlidir” [Baiasgalan: 2006, s.2].

**Nəticə.**

Araşdırmalar göstərir ki, bir sıra xalqların dünyagörüşündə müəyyən sayların müqəddəs dəyərlərə malik olduğunu hesab etmək olar. Sayların mənşəyi bəşər tarixinin ilk mərhələlərindən başlayır. Dil və mədəniyyətin məcmu funksiyası sayəsində sabit ifadələr nəsildənnəslə ötürülür. Onların daxili forması və əhəmiyyəti müəyyən bir mədəniyyətin müasir nümayəndələri tərəfindən də hiss olunur.

Saylarla ifadə edilən simvollar məcazi mənaya rəqəmsal tərz gətirməklə onları daha zənginləşdirmişdir. Say simvolizmi tarix boyunca önəmli olmuşdur. Müxtəlif mədəniyyətlərdə eyni say önəmli olsa da, əhəmiyyətinin ortaya çıxan məqamlarında fərqliliklər olduğu görülmüşdür. Digər tərəfdən, bizim üçün xüsusi bir məna ifadə etməyən bəzi sayların digər mədəniyyətlərdə son dərəcə zəruri bilindiyini görə bilərik.

## ƏDƏBİYYAT

1. Gamkrelidze, T.V. & Ivanov, V. V., (1984). *Indo-European language and Indo-Europeans.* V.2. Tbilisi: Publishing House of Tbilisi Univ.
2. Husain, K.S., Islam A. (2004). *Kazaksha-agylshynsha lingvomadeni sozdigi*. Almaty.
3. Loseva, A. F. (1988). *Istoria antichnoi estetiki.* Poslednii veka. Kn. 1, M., s.231-233.
4. Parkhamovich, T.V. (2011). *English-Russian, Russian-English dictionary of phraseology.* Moscow: Potpourri degree Language: Russian Format.
5. Пирманова Н.И. (2008). *Культурные коннотации фразеологизмов с компонентами свет – небо – земля*: Автореф. дисс. … канд. филол. наук. Екатеринбург, 22 с.
6. Shaundug Baiasgalan. (2006). *Semantics of numerals in the phraseology of the Mongolian, Russian and English languages*: the Author’s Thesis for Candidate of Philology. SP., 2 p.

7. Toporov, V.N. (1988). *Numerals. Myths of the world. Moscow: Sciences*.
8. Телия В.Н. *Русская фразеология: Семантический, прагматический и лингвокультурологический аспекты.* М.: Школа «Языки русской культуры», 1996, 288 с.

**Sarjan SADIGOVA**

## LİNGUOCULTURAL ASPECT OF NUMBER SYMBOLİSM

## SUMMARY

The article discusses the linguocultural features of the symbolism of numbers. Linguoculturology as a branch of linguistics emerging at the crossroads of linguistics and cultural studies can be considered as an integrative field of knowledge that combines the results of ethnolinguistic and anthropological research. The article notes that it would be wrong to think that the factors of research and analysis of numbers affect only the history and philosophy of mathematics, because they have a great influence on linguistics, ethnology, culturology and other sciences. Because numbers have additional symbolic meanings in the cultural system of symbols, they are considered semiotic multifunctional symbols. Numbers have always been united with language and culture, and they have always been part of the culture of the people. It is noted in the article that the numbers with a nominal value are divided into two groups, productive and non-productive, and the numbers *1, 2, 3, 4, 5, 7, 9, 12, 40* from the productive ones are discussed and their symbolic meanings are given. It has been concluded that certain numbers have sacred values in the worldview of a number of peoples, and in order to be aware of these values, it is necessary to study the meanings they assimilate.

**Keywords**: *linguoculturology, language and culture, symbolism, symbolic meaning, number, phraseology.*

**Сарджан САДЫГОВА**

## ЛИНГВОКУЛЬТУРНЫЙ АСПЕКТ ЧИСЛОВОЙ СИМВОЛИКИ

## РЕЗЮМЕ

В статье рассматриваются лингвокультурологические особенности символики чисел. Лингвокультурология как отрасль лингвистики, возникающая на стыке лингвистики и культурологии, может рассматриваться как интегративная область знаний, объединяющая результаты этнолингвистических и антропологических исследований. В статье отмечается, что было бы неправильно думать, что факторы исследования и анализа чисел влияют только на историю и философию математики, поскольку они имеют большое влияние на лингвистику, этнологию, культурологию и другие науки. Поскольку числа имеют дополнительные символические значения в культурной системе символов, они считаются семиотическими многофункциональными символами. Числа всегда были объединены с языком и культурой, и они всегда были частью культуры народа. В статье отмечается, что числа с номинальной стоимостью делятся на две группы, производственные и непроизводственные, а числа *1, 2, 3, 4, 5, 7, 9, 12, 40* из производительных - обсуждены и даны их символические значения. Был сделан вывод, что определенные числа имеют сакральные ценности в мировоззрении ряда народов, и для того, чтобы осознавать эти ценности, необходимо изучить значения, которые они усваивают.

**Ключевые слова:** *лингвокультурология, язык и культура, символизм, символическое значение, число, фразеология.*